ona tərəf cumdu

-Ah... hə, artıq bir nəfər gəlib. Keç soyun! Camaat ağlını itirir. Yalnız bir skripkaçı var idi, onun da çıxışı bitəndən sonra məcbur olduq antrakt elan edək.

-Daha çox oxuyun. Allah xatirinə, daha çox oxuyun. Yoxsa siz bizi məhv edəcəksiniz.

-Neçə şeir oxuyacaqsız?

-İki.

-Qırx beş dəqiqəni idarə eləməyə yetər?

-Y-yox... Ancaq altı dəqiqə...

-O bizi məhv edəcək. Onda yenə nəsə oxuyun. Başqa şeirlər oxuyun.

-Başqa şeirlər olmaz, - baş sərəncamçının səsi digərlərinin səsini üstələdi. Biz cərimə ödəmək arzusunda deyilik. Qarayanız yerindən sıçradı:

-Hə, o zaman oxuyacağı iki şeiri çox yavaş oxusun, Madmazel Katomka... Bağışlayın, mən elə... Çox yavaş oxuyun, sözləri elə uzadın ki, yarım saat səhnədə qala biləsiniz. Anlayın, biz sizdən saman çöpündən yapışan kimi yapışmışıq. Qapı arxasından boğuq uğultu və ayaq tappıltıları eşidildi:

-Oy, vaxtdır! Çıxarın onu səhnəyə!

Və budur, Kotomka tamaşaçıların qarşısındadı.

-İlahi, yardım et. Söz verirəm, bir də heç vaxt...

-Həmən başlayın!

-Arxadan qarayanız ötməyə başladı. Katomka ağzını açdı və yanıqlı-yanıqlı mələdi:

-Haçan bütünlüklə yüklənirəm... Yavaş! Yavaş! Bədbəxt etməyin bizi. Pıçıltı fit kimi səslənirdi.

Ucadan!-Tamaşaçılar qışqırırdılar.

-C-cavan gov-də-mi...

-Ucadan!

-Ucadan!

-Əhsən!

Tamaşaçılar əməlli-başlı əylənirdilər. Arxa sıradakılar yaxşı görmək üçün yerlərindən qalxmışdı. Əsəbi halda zingildəyərək kimsə qəhqəhə çəkirdi. Hamı dalğalanıb pıçıldaşaraq səhnədən üz çevirirdi. Birinci sırada oturmuş xanımlardan biri ciyildəyərək qaçıb getdi.

-Ə-yi-yi-yirəm m-əns-əə... - Kotomka mələyirdi. O. Özü də dəhşət içərisindəydi. Göz bəbəkləri ölülərin gözləri kimi üst kirpiklərinin altında gizlənmişdi, başı yana əyilmişdi və naqolay qoyulmuş bir ayağı açıq-aydın möhkəmcə titrəyirdi. O, hər iki şeiri tezbazar inildəyib tamaşaçıların vəhşi uğultu və alqış sədaları altında səhnəni tərk etdi.

Qarayağız onun üstünə cumdu:

-Siz neylədiz? Heç on beş dəqiqə keçmədi. Gərək yavaş oxuyaydınız. Siz isə öküz kimi mədkarsınız. Yenə qayıdın səhnəyə.

Və Kotomkanı vurub ikinci dəfə səhnəyə çaxartdılar. Artıq o, nə edəcəyini bilirdi. Dərhal bayaqkı vəziyyətdə dayanıb başladı:

-Ha-ha-haçan bütünlüklə...

Zalda dəhşətli bir gurultu var idi. Və o, demək olar ki, öz səsini eşitmirdi. İnsanlar gülməkdən yırğalanıb xəstə kimi zarıyırdılar. Bir çoxları yerlərini tərk edib qapının ağzına yığışaraq bir qədər sakitləşmək üçün Kotomka tərəfə baxmamağa çalışırdılar. Qarayanız şairi pərtlikdən pörtmüş üzlə qarşıladı. Hə, indi pis deyil. Əsas odur ki, camaatın xoşuna gəldi. Artistlər üçün ayrılmış otaqda isə qızılı oğlanlı səsli ümidsizliyə qapılmışdılar. Heç kəs gəlməmişdi. Baş sərəncamçılar nə barədəsə pıçıldaşıb divanın yanında dayanaraq alnının tərini silən və köpmüş at kimi nəfəs alan Kotomkaya yaxınlaşdılar.

-İnanın, cənab şair, biz çox utanırıq, ancaq sizdən yenə nəsə oxumağınızı xahiş etməyə məcburuq. Yoxsa biz məhv olacağıq. Ancaq xahiş edirik, bayaqkı şeirləri oxuyun. Yoxsa sizə görə gərək cərimə ödəyək.

Tamamilə heç nə anlamayan Kotomka üçüncü dəfə səhnəyə çıxdı. Tamaşaçıların içində kimsə ucadan sevinclə bağırdı:

-Pah! Bu yenə burdadı! Hə, mən bunu sizə deyim...

-Qəribə xalqdır!-Kotomka düşünürdü.-Lap vəhşidirlər. Əgər onlara bir şey xoş gəlirsə qəhqəhə çəkirlər. Onlara Madonnanın şəklini göstər, yəqin ki, gülməkdən partlayarlar. O, boğazını arıtladı və başladı:

-Ha-ha-a-ça-a-an.

Birdən son cərgələrdən əyninə teleqrafçı gödəkçəsi geyinmiş ucaboylu yekəpər bir adam əllərini yuxarı qaldıraraq gur səslə bağırdı:

-Əgər yenə siz öz gövdəniz barədə oxuyacaqsınızsa ləyaqətlə xəbərdarlıq edin, ona görə ki, bu, sizin üçün çox pis nəticələnə bilər!

Ancaq Kotomka elə vıyıldayırdı ki, teleqrafçının həyəcanlı səsini eşidə bilməzdi. Kotomkaya əlli qəpik faytonpulu verdilər. O, yolboyu öz fikirlərinə acı-acı gülümsəyirdi: "Bax, mən indi adlı-sanlı adamam, camaatın sevimlisiyəm. Ancaq məgər mən xoşbəxtəm? Məgər mən ruhlanmışam? "Şöhrət nədir? Müğənninin nimdaş köynəyindəki parlaq yamaq". Mən elə düşünürdüm ki, şöhrət necəsə başqa cür hiss olunur. Bəlkə məndə sadəcə, şöhrətpərəstlikdən əsər-əlamət yoxdu?"

*Rus dilindən tərcümə etdi:*
**Xuraman HÜSEYNZADƏ**

